https://doi.org/10.59849/3006-2403.2025.2.57

***Əlimuxtar MUXTAROV***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***
***AMEA Gəncə Bölməsinin elmi işlər üzrə sədr müavini***
***https://orcid.org/0000-0002-7117-2163***
***E-mail: muxtarovalimuxtar@gmail.com***

# NİZAMİ VƏ GƏNCƏ

*Açar sözlər:* Azərbaycan şairi Nizami Gəncəvi, Gəncə, milli mənsubiyyət, "Xəmsə", poema

Dahi Azərbaycan şairi, mütəfəkkiri Nizami Gəncəvinin yaşadığı dövrdən, əsərlərini qələmə aldığı zamandan bizi 800 ildən artıq zaman ayırsa da, onun əsərlərində milli mənsubiyyəti ilə bağlı toxunduğu mətləblər bu gün də günəş kimi parlaq, səma kimi aydındır. Ölməz "Xəmsə" sində milli mənsubiyyəti ilə yanaşı, toxunduğu, izah etdiyi hər bir mətləbə hansı dövrdə kimin müdaxilə etməsindən aslı olmayaraq, yuxusuz gecələrinin məhsulu olan bütün misraları onun milliyyətini, məkanını, dünyagörüşünü təhrif etməyə imkan verməmiş və verməyəcəkdir. Çünki "Nizami yaradıcılığının daimi mövzularından olan Gəncə, hər şeydən əvvəl Nizami vətəni kimi nəsillərin xatirələrində əbədiləşmişdir. Tarixi qaynaqlar və bədii əsərlərdə Gəncə şairin adı ilə yanaşı xatırlanaraq onu məntiqi baxımdan tamamlayır.Nizami irsinin görkəmli tədqiqatçıları, xüsusilə şairin ardıcılı olan görkəmli söz ustaları Gəncəni şairin vətəni, Nizami yurdu kimi xatırlayır, sələfləri çox vaxt adını çəkmədən onu "Gəncə ustadı", "Gəncə xəzinadarı", "Gəncəli dahi", deyə yad edirlər. N.Araslı

Gəncəli dahi təkcə yaşadığı ömür payının deyil, həm də ölümündən sonrakı dövrlərdə də ruhunun, yaşadığı məkanın, şəxsiyyətinin sanki yol xəritəsini də müəyyənləşdirmişdir.

نهان مرا آشکارا برند
ز گنجه است اگر تا بخارا برند

Mənim gizlinlərimi ki, açıq-aşikar oğurlayırlar,
Onları Buxaraya qədər aparsalar da Gəncədəndir... (5, 33).

Sonuncu məsnəvisi "İsgəndərnamə" poemasının "Şərəfnamə" hissəsində yer alan bu beyt 8 əsr əvvəl yazılsa da günümüzdə nizamişünaslığın ən aktual problemlərindən birinə məəşəl tutur.

Daha əvvəl qələmə aldığı "Sirlər Xəzinəsi" məsnəvisində də dahi mütəfəkkir uzaqgörənliklə yenə də çağımızın problemlərinə, dedi-qodularına dahiyanə münasibət bildirir...

بابل من گنجه هاروت سوز
زهره من خاطر انجم فرو

Mənim Babilim Harutu yandıran Gəncədir,
Mənim Zöhrəm ulduzları işıqlandıran xatirimdir... (4, 60).

Nizami Gəncəvi dövrümüz üçün aktual hesab edilən təkcə məkan anlayışından çıxış etmir, eyni zamanda mənsub olduğu Azırbaycan türkü olması ilə də fəxr edir, öyünür. İkinci məsnəvisi "Xosrov və Şirin" ndə isə toxunduğumuz mövzunun kiliminasiya nöqtəsini izləyirik..

گر او ماهست ما نیز آفتابیم
و گر کیخسرو است افراسیابیم

Əgər o aydırsa, biz afitabıq
O Keyxosrovdursa, biz Əfrasiyabıq (6, 177).

Fundamental elmi əsaslar və günümzə qədər gəlib çatan orijinal əlyazmalardan süzülən bu beytlərin sayını istənilən qədər artıra bilərik. Bu misraların ən mühüm cəhəti odur ki, bu misralarda Nizami Gəncəvidən başqa kimsə danşmır. Fikirlər, sözlər dahi mütəfəkkrin özünə məxsusdur, birbaşa əlyazmalarında öz əksini tapmışdır. Profesor Xəlil Yusifli də "Nizaminin lirikası" monoqrafiyasında Nizami Gəncəvinin əlyazmalarını təhrif edənləri nəzərdə tutub yazır: " Bu dövrə qədər,( yəni XVI əsrə qədər Ə.M) hələ Nizaminin əsərləri onların üzünü köçürən katiblər tərəfindən təhriflərə məruz qalmamışdır, onlara yersiz müdaxilələr edilməmişdir".

Akademik Teymur Kərimli Ulu Nizaminin "Xəmsə" sində özü ilə bağlı öncədən görmələri Peyğəmbər uzaqgörənliyi ilə müqaisə edir. Və bu da təsüdüfi deyildir. Çünki orta əsrlərdə Şərqin bir çox mütəfəkkirləri Nizami Gəncəvini şeirin, poeziyanın Allahı adlandırırdılar.

İsa nəfəsli Nizami Gəncəvinin Azərbaycan şairi olduğunu, Gəncədən olduğunu təkcə günümzə qədər gəlib çatan əlyazmaları deyil, həm də dahi mütəfəkkirin yaşadığı dövrə yaxın bir zaman dilimində yaşayan Şərqin bir çox mütəfəkkir alimləri də etiraf etmiş, etiraf etməklə qalmamış öz əsərlərində də bu mövzunu qələmə almış, işıqlandırmışlar.

Şərq ədəbiyyatında ilk təzkirə müəllifi kimi tanınan Məhəmməd Ovfi "Lübabül-əlbab" adlı təzkirəsində Nizami Gəncəvi haqqında olan bəhsi belə başlayır: " Əlhəkim əl-kamil Nizami əl Gənceyi". M.Ovfi Nizami Gəncəvidən Gəncəli olaraq elə bəhs açır ki, şübhəyə yer qalmır. Zəkəriyyə Qəzvini coğrafi əsəri "Asarül-bilad və əxbarül-ibad" da Əbu Məhəmməd Nizami deyərək bəhs etdiyi dahi Azərbaycan şairi Nizami Gəncəvinin Gəncədən olduğuna heç bir şübhə etmir.(11). Məşhur Azərbaycan alimi Əbdürrəşid əl-Bakuvi "Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri" əsərində yazır: "Görkəmli şair, arif, və hakim Əbu Məhəmməd Nizami burdandır".

Türk dünyasının böyük mütəfəkkiri Əlişir Nəvai isə həm sələflərindən, həm də xələflərindən tamamilə fərqli şəkildə ustadının Gəncə torpağında nəşvünüma etdiyini obrazlı formada ifadə etmişdir.

O Gəncə torpağında yatan müqəddəs insan
Şeir xəzinələri yaratdı kəlamından.
Qiymətli incilərlə bəzədi bu aləmi,
Yoxdur o incilərin sayı ulduzlar kimi...
Nizami, bu dünyada kimi tay tutsam sənə,
Şeirinin qüdrətinə bərabər olmaz yenə. (7, 45).

Nizami Gəncəvinin əbədiyaşar əsərlərində ata-anasının, özünün Gəncədən olmasını sübut edən onlarla, yüzlərlə misralar, beytlər göstərmək mümkün olduğu kimi, müxtəlif dövrlərdə yaşayaraq Nizami Gəncəvinin Gəncədən olmasını bildirən mütəfəkkirlərin sayı da onlarla, yüzlərlədir.

Təəssüf doğuran cəhət isə budur ki, orta əsrlərdə, Nizami Gəncəvinin yaşadığı dövrə yaxın bir zamanda yaşayan bu alimlərin ulduzlar kimi parlayan bu fikirlərini, görüşlərini dahi mütəfəkkirdən xeyli sonra yaşamış bəzi təzkirəçilər, araşdırıcılar qəbul etməmiş, dolayısı yollarla təhrif etməyə çalışmışlar.

Əbdülnəbi Qəzvini, Əmin Əhməd Razi, Lütfəli bəy Azər, Rzaqulu xan Hidayət, Məhəmmədəli Təbrizi və bu kimi sayı o qədər də çox olmayan orta əsr təzkirə və salnaməçiləri əsası olmayan beytlər əsasında dahi mütəfəkkirin mənsub olduğu Azərbaycan türkünü və məkan qurduğu qədim Gəncə torpağını inkar etməyə çalışsalar da, Nizami Gəncəvinin əsərlərində verdiyi avtobioqrafik məlumatlar və ən əsası isə özündən sonra

Azərbaycan torpağında bu günə qədər də davam edib yaşayan nəsil şəcərəsi, adına olan yurd, mülk, ərazi, türbə və bu kimi məkanlar tarixdən süzülüb gələn ən doğru həqiqətlərin carçıları kimi tarixi həqiqətlərə ən gözəl işıq tutur.

Qədim Gəncə torpağında Dahi Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyan, onun adı ilə bütövləşən ilk məkan Atabəylər dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvanın (vəfat etdiyi üçün qardaşı Qızıl Arslan hədiyyə edir) şairə bağışladığı Həmidünya kəndi və bu kəndin ərazisində yerləşən Şıx düzüdür.

Nizaminin vəfatından sonra onun qəbri üstündə tikilən və XIX əsrədək qalan türbə Azərbaycan ərazisində əlamətdar məkanlardan olub. Bu türbə Qızıl Arslan tərəfindən Şeyx Nizamiyə hədiyyə edilmiş, Gəncə şəhərinə bitişik Həmidünya kəndinin ərazisindədir və görünür, ona görə də buralar "Şeyx düzü", "Şıx düzü" adlandırılır. "Şıx düzü"ndə aparılan arxeoloji qazıntılar sübut edib ki, ərazi vaxtilə qədim Gəncə şəhərinin və onun ətrafının adlı-sanlı adamlarının dəfn edildiyi yer, buraların bir növ fəxri məzarlığı olub. Uzun illər ərzində Türkiyədən, İrandan, İraqdan, eləcə də Yaxın və Orta Şərqin digər müsəlman ölkələrindən Nizami məqamını ziyarətə gəlirlərmiş. O cümlədən, mövləvilər də Nizamini Şeyxlər Şeyxi adlandıraraq, onu özlərinə mürşid sayırmışlar. (12,2).

Akademik Həmid Araslı "Nizaminin vəqfi haqqında yeni sənəd" məqaləsində qeyd edir ki, ölümündən sonra Nizaminin qəbri ziyarətgaha çevrilib, şairin öz kəndinin gəlirlərindən başqa, bizə məlum olmayan hökmdarlar və ya bivaris ölən adamlar tərəfindən də bu məqbərəyə vəqflər edilib. XVI əsrdə bu məqbərə çox gəlirli vəqfi olan, gəlib-gedənlərə və yoxsullara hər gün yemək verən, müdərrisləri təmin edən bir xeyriyyə ocağı olub. (2, 2).

Nizami Gəncəvi vəqfi ilə bağlı ilk fundamental məlumata türkiyəli tədqiqatçı Fəxrəddin Kırzıoğlunun araşdırmalarında rast gəlirik. Fəxrəddin Kırzıoğlu 1979-cu ildə Ankara Universitetinin Ədəbiyyat fakültəsi tərəfindən nəşr edilən “Araşdırma” jurnalında yazır: “XVI əsrin sonunda Gəncə-Qarabağ əyalətində mövcud olan vəqflərin ən önəmlisi “Şeyx Nizami vəqfi” hesab edilirdi. XVI əsrin sonunda Gəncə şəhəri Osmanlı hakimiyyətinə tabe edildikdən sonra “Şeyx Nizami vəqfi”nin də gəlirləri qeydiyyata alınmışdır”. (17).

AMEA Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı Cavid Qasımov Nizami Gəncəvi vəqfi haqqında öz tədqiqatında yazır: “Şeyx Nizami vəqfi” haqqında Azərbaycanın elmi mühitinə ilk məlumat mərhum akademik Həmid Araslı tərəfindən verilmişdir. Akademik Həmid Araslı 1983-cü ildə «Ədəbiyyat və incəsənət» qəzetində “Nizami vəqfi haqqında yeni sənəd” adlı məqaləsini nəşr etdirərək, Azərbaycanda Nizami Gəncəvi irsinin araşdırılmasına çox qiymətli töhvə vermişdir. 1984-cü ildə “Ədəbiyyat və incəsənət” qəzetində Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun əməkdaşı Husaməddin Məmmədov və mərhum akademik Ziya Bünyadovun birlikdə hazırladıqları “Nizami vəqfi haqqında sənədə dair” adlı məqalə nəşr edildi. Məqalədə, “Şeyx Nizami vəqfi” haqqında ümumi məlumatlarla yanaşı, onun osmanlıca yazılmış mətni də Azərbaycan dilinə tərcümə edilərək verilmişdi.

“Gəncə-Qarabağ əyalətinin icmal dəftəri” nin məlumatlarına görə “Şeyx Nizami vəqfi” nin büdcəsi təkcə, Atabəy Qızıl Arslan tərəfindən verilən Həmdünyan(Osmanlı qaynaqlarında həmçini İlə kimi də qeyd olunur) kəndinin torpaqlarının gəlirləri əsasında formalaşmırdı. Gəlirlərinin artmasına əhali tərəfindən qəbrin ziyarətgaha çevrilməsi, hökmdarlar, tacirlər, sənətkarlar və cəmiyyətin digər təbəqələrinə mənsub olan varlı adamların öz əmlaklarının hamısını və ya bir hissəsini vəqf etməsi çox ciddi təsir göstərmişdir”. (18).

“Nizami Gəncəvi vəqfi”nə toplanan ianələrin böyük bir hissəsi dahi şairə məxsus Həmidünyan kəndinin payına düşürdü ki, bu kəndin tarixi ərazisi də indiki İmamzadə Dini Kompleksinin ərazisini əhatə edirdi. “ Nizami Gəncəvi dühasını Gəncə İmamzadə ziyarətgahı ilə qırılmaz mənəvi tellərlə bağlayan ən mühüm səbəblərdən biri də onun şəcərəsinin əbədi olaraq bu müqəddəs məkanla tarixi bağlılığı olmuşdur. Daha doğrusu, bir sıra tarixi

mənbələrdə qeyd olunduğu kimi İmamzadə abidəsi və onun ətrafında olan torpaqlar Nizami Gəncəviyə, şəcərəsinə məxsus olmuşdur" (9, 97).

Son dövrlərdə Nizami Gəncəvi məqbərəsi və ətraf ərazilərdə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun alimlərinin apardığı arxeoloji qazıntılara əsasən ehtimal edilir ki, tarixi Həmidünya kəndi müasir inzibati ərazi vahidliyi ilə Goranboy rayonun Həmənli kəndidir.

Nizami Gəncəvinin uyuduğu Şıx düzü ilə bağlı məlumatlara tarixi-etnoqrafik araşdırmalarda da rast gəlmək mümkündr. "1826-cı ildə Rus ordusu ilə İran ordusu arasında baş verən Yelizavetpol döyüşü Şıx düzü ərazisində baş vermişdir.Və bu döyüşün həmin ərazidə baş verməsi nəticəsində Nizami Gəncəvi məqbərəsinə də xeyli ziyan dəymişdir" (14, 50).

Dahi mütəfəkkirin adı ilə bağlı olan, onu Gəncəyə bağlayan müqəddəs məkanlardan biri də Gəncənin simvolu hesab edilən Nizami Gəncəvi Məqbərəsidir. Dahi mütəfəkkirin məzarı üzərində tikilən ilk məqbərənin tarixi, nə zaman və hansı formada olması səhih məlumatlarla təsdiqlənməsə də, gün kimi aydın olan tarixi məlumat bundan ibarətdir ki, Nizami Gəncəvi vəfat etdikdən sonra Gəncədə qəbri üzərində ucaldılan abidə, günbəz, məqbərə insanlar tərəfindən daim ziyarət olunmuş, ehtiramla anılmışdır (2, 1).

Müxtəlif dövrlərdə dahi mütəfəkkirin məzarı üzərində ucaldılan abidə ərazidə baş verən qanlı döyüşlər, təbii fəlakətlər nəticəsində dağılsa da, qədirşinas Nizamisevərlər tərəfindən bərpa edilərək xalqın xidmətinə verilmişdir. 1909-cu ildə dahi Nizami Gəncəvinin həmyerlisi olan Mirzə Məhəmməd Axundov Gəncədə "Hacı Əhməd" mətbəəsində çap etdirdiyi "Şeyx Nizami" kitabından əldə edilən gəlirin məhz Nizami Gəncəvinin Məqbərəsinin təmirinə, bərpasına yönəldəcəyini kitabın titul səhifəsində qeyd etmişdir.

Ədəbiyyat tarixindən də məlum olduğu kimi Azərbaycanın görkəmli xadimləri Abbasqulu ağa Bakıxanov, Seyid Əzim Şirvani, İsmayıl bəy Qutqaşınlı və başqaları ayrı-ayrı zamanlarda Şeyx Nizami Gəncəvinin türbəsini ziyarət etmiş, öz öz ehtiramlarını ifadə etmişlər.

Qeyd etdiyimiz kimi Nizami Gəncəvinin məzarı üzərində ucaldılan abidələr müxtəlif dövrlərdə hansı formada olmasından aslı olmayaraq, dahi mütəfəkkirə doğma Gəncəsində bəxş edilən ən unikal abidəni Ulu Öndər Heydər Əliyev ucaltmışdır. " Ulu Öndərin qətiyyəti nəticəsində 1989-1991-cı illərdə rekonstruksiya olunan, bir neçə il qabaq isə özü və ətrafı əsaslı şəkildə abadlaşdırılan Nizami məqbərəsinin qranit tikilisinin uca nöqtəsinin yer səthindən hündürlüyü 22,5 metrdir (12, 1).

Nizami Gəncəvinin Məqbərəsinin layihə müəllifi tanınmış sənətkar, Əməkdar memar, mərhum Fərman İmamquliyevdir. Silindrik formalı monumental tikili olan məqbərə Ukraynadan gətirilmiş qırmızı sal qranit bloklarından inşa edilib. Nizami Gəncəvinin adı qızıl xətlə məqbərənin girişində həkk olunub. Abidənin ətrafında park salınıb. Buradakı "Xəmsə qəhrəmanları" adlı bədii-monumental kompozisiyaların müəllifi isə əməkdar rəssam, mərhum Qorxmaz Sücəddinovdur.

Tanrının bir insandan razılığı həmin insanın ata-anasının razılığı nisbətindədir.Bu mənada Nizami Gəncəvi məqamını müqəddəs edən başlıca məqam onun bu türbədə, bu torpaqda uyumasıdırsa, digər əsas məqam isə dahi mütəfəkkirin atası Yusif və anası Rəisə xanımın da Nizami Gəncəvi Məqbərə Kompleksində dəfn edilmələridir.Bu gün dahi Nizami Gəncəvini ziyarətə gələn hər bir insan onun özü ilə yanaşı, ata-anasının da sərdabələrini, məzarlarrını ziyarət edir, ruhlarına dua edirlər.

Heç şübhəsiz ki, Gəncə şəhərinə özünəməxsus təntənə, möhtəşəmlik verən Nizami Gəncəvi abidələrindən biri də şəhərin mərkəzi yerlərindən birində ucalan Nizami Gəncəvi heykəlidir. 1947-ci ildə ümumittifaq səviyyəsində Nizami Gəncəvinin 800 illik yubileyi

keçirildiyi ərəfədə və sonrakı dövrlərdə Bakı şəhəri ilə yanaşı dahi mütəfəkkirin öz doğma şəhərində də əzəmətli abidəsi ucaldılır.

1946-cı ildə Gəncə şəhərində ucaldılan abidənin heykəltəraşı Fuad Əbdürəhmanov, memarları isə Sadıq Dadaşov və Mikayıl Hüseynovdur.

Gəncə şəhərinin Şərq girişində şəhər sakinlərini və İpək yolundan istifadə edən bütün insanları əzəmətlə qarşılayan Nizami Gəncəvi xatiratlarından biri də dahi mütəfəkkirin şərəfinə inşa edilən Nizami Gəncəvi Muzeyidir.

Azərbaycan Respublikasının Prezidneti İlham Əliyevin 24 yanvar 2014-cü ildə Gəncə şəhərinə səfəri zamanı açılışı edilən Nizami Gəncəvi Muzeyi Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilmişdir.

Muzeyin Nizami Gəncəvinin Məqbərəsi ilə üzbəüz ərazidə inşa edilməsi də müdrik təfəkkürün təzahürüdür. Çünki bu yerləşmə buraya gələn turistlərə həm məqbərəni ziyarət etməyə, həm də şairin həyat və yaradıcılığı haqda geniş məlumat öyrənməyə imkan yaradır. Muzeyin qarşısında Nizami Gəncəvinin büstü qoyulmuşdur.

Muzeydə Nizami Gəncəvi guşəsi yaradılmış, şairin həyat və yaradıcılığını əks etdirən monitor quraşdırılmışdır. Elmi tədqiqat şöbəsində elmi araşdırmalar üçün hər cür şərait vardır. Muzeydə mütəfəkkirin həyat və yaradıcılığı haqqında geniş məlumatlarla zəngin elektron məlumat köşkü quraşdırılmışdır. Muzeydə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və cənab Prezident İlham Əliyevin Nizami Gəncəvi ilə bağlı imzaladıqları Qərar və Sərəncamlarla yanaşı, dahi şairin 800, 840, 870, 880 illik yubileyləri münasibətilə nəşr olunan kitab, monoqrafiyalar nümayiş etdirilir. Birinci mərtəbədə Nizami Gəncəvi və Ulu Öndər Heydər Əliyev guşəsi də yaradılmışdır ki, burada da Ulu Öndərin müxtəlif vaxtlarda Nizami Məqbərəsini ziyarət edərkən çəkilmiş foto-sənədlər nümayiş etdirilir. Muzeydə şairin Avstriya, Rusiya, Almaniya, Böyük Britaniya milli kitabxanalarında, Misirin İsgəndəriyyə kitabxanası, Fransanın Strasburq kitabxanası və ABŞ-ın Metripoliten muzeyində Metropol muzeyində qorunan nadir "Xəmsə" əlyazmalarının və miniatürlərinin orijinalları və nüsxələrindən ibarət guşə yaradılmışdır.

Nizami Gəncəvinin həyatı, yaradıcılığı Azərbaycan tarixinin bir parçası olduğu kimi, tariximizin də rezenans, çiçəklənmə dövrü məhz dahi şairin yaşadığı əsr, yüzillik olmuşdur. Bu baxımdan heç təsadüfi deyil ki, Gəncə şəhər Tarix Diyarşünaslıq Muzeyi də dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Gəncə Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Nizami Gəncəvi adına Tarix Diyarşünaslıq Muzeyinin yerləşdiyi inzibati bina özü də Nizami Gəncəvi qədər milli koloritli və şərəfli tarixə malikdir.

Hazırda muzeyin yerləşdiyi bina XIX əsrdə tikilmişdir. Bu bina Cavad xanın nəticələri İsmayıl xan və Adil xan Ziyadxanovların şəxsi mülkü olmuşdur. Adil xan və İsmayıl xan Ziyadxanovlar Cavad xanın nəvəsi Əbülfət xan Ziyadxanovun oğulları idi.

Muzeyin əsası 1924-cü ildə qoyulmuşdur. Muzeyin yaradılmasında Gəncə seminariyasının müəllim və tələbələrindən İ.Cəfərzadə, S. Seyidov, C.Rəfibəyov, F.Məlikov və başqaları fəal iştirak etmişlər.

Hal-hazırda muzeyin 30 mindən çox eksponatı vardır. Muzeyin ekspozisiyasında Gəncənin ən qədim dövrlərindən başlamış son zamanlara qədər olan tarixi, arxeoloji tapıntı nümunələri, maddi-mədəniyyət abidələri, etnoqrafik, epiqrafik, numizmatik nümunələri 18 salonda nümayiş etdirilir.

Bunlardan başqa muzeyin ekspozisiyasına Qafqaz Albaniyası dövrünə aid gümüş qadın tacı, Nizami Gəncəvinin qəbrindən aşkarlanmış çıraqlar, Gəncə xalçaçılıq məktəbinə məxsus xalça nümunələri, Azərbaycan tarixinin müxtəlif dövrlərinə aid sikkələr, zərgərlik nümunələri, müxtəlif dövrlərə aid saxsı nümunələri, metalişləmə nümunələri, Gəncə xanlığının bayrağı da daxildir.

Gəncə deyiləndə Nizami Gəncəvi xatırlandığı kimi, Nizami Gəncəvi deyiləndə də ilk yada düşən məhz qədimliklə müasirliyi özündə ehtiva edən Gəncə şəhəri olur. Tarixin bütün dövrlərində Azərbaycan, xüsusilə Gəncə ziyalıları heç vaxt özlərini Şeyx Nizami Gəncəvinin dühasından, duasından məhrum etməmiş, daim onunla bir olmuşlar.Təsadüfi deyildir ki, dahi Nizami Gəncəvinin ilk tədqiqatçıları sırasında Gəncə şəhərinin yetişdirdiyi alimləri, ziyalıları üstünlük təşkil etmişlər ki, (Mirzə Məhəmməd Axundov, Həmid Araslı v.b.) bu da böyük mütəfəkkirin öz yurduna olan səmimi niyazının bəhrəsi olsun gərək…

Nizami Gəncəvi irsinin dünyada daha da geniş tanıdılması, təbliğ edilməsi və bu sahədə fundamental tədqiqatların aparılması məqsədilə AMEA-nın müvafiq qərarı ilə Gəncə Regional Elm Mərkəzinin nəzdində 2008-ci ildə "Nizamişünaslıq" şöbəsi yaradılmış, 2012-ci ildə isə "Nizami Gəncəvi Mərkəzi" status almışdır.

Gəncə şəhərində Nizami Gəncəvi ruhunu özündə əks etdirən abidə komplekslərindən biri də şəhərin Şərq tərəfdən 7 km-lik girişini əhatə edən "Xəmsə" Daş Kitabələr Kompleksidir.

"Xəmsə" Daş Kitabələr Kompleksi Gəncə şəhərinin girəcəyində yerləşir. Bu kitab-abidələr 2017-ci ildə inşa edilib. "Xəmsə" Daş Kitabələr Kompleksinin müəllifi heykəltəraş Şərif Şərifovdur. Şair Nizami Gəncəvi dünya ədəbiyyatnda ilk "Xəmsə" şəkilli bədii yaradıcılıq nümunəsinin müəllifidir. Onun "Xəmsə"sinə daxil olan ilk poeması "Sirlər xəzinəsi" əsəridir. Daha sonra şair "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İsgəndərnamə" poemalarını qələmə alıb.

Kompleksdə Nizami Gəncəvinin bu beş əsərinə kitab-abidə ucaldılıb. Onların hündürlüyü 25 metr, eni isə 12 metrdir. Bu abidələr açıq kitab şəklindədir. Kitab-abidənin sağ səhifəsinə "Xəmsə"yə daxil olan poemanın adı həkk edilib. Abidələrin sol hissəsini isə həmin əsərə həsr edilmiş miniatür üslublu rəsm təşkil edir.

"Xəmsə" memarlıq kompleksində dahi mütəfəkkirin təkcə öz heykəli deyil, eyni zamanda "Xəmsə" yə daxil olan hər bir məsnəvisinin qəhrəmanı burada yad edilmişdir.

Gəncəçay sahilində yenidən qurulan "Xəmsə" memarlıq kompleksində bu gün Nizami Gəncəvinin heykəli ucalır. Təqdirəlayiq haldır ki, kompleksin inşasında ənənəvi Azərbaycan memarlığına istinad olunub və beləliklə, Nizami Gəncəvi yaradıcılığını əks etdirən son dərəcə nadir sənət abidəsi ərsəyə gəlib.

Dahi Nizami Gəncəvi bəşəriyyət, bəşər övladı üçün qələmə aldığı ölməz "Xəmsə" sində sələflərinə dərin ehtiramla yanaşdığı kimi, xələfləri üçün də tükənməz sərvət olan əsərlər, ədəbi məktəb qoyub getmişdir. Məhz Gəncə şəhər Hacıkənd qəsəbəsində salınan "Nizami Gəncəvi: sələflər və xələflər" mədəniyyət parkı simvolik olsa da, dərin mənada bu təfəkkürü özündə əks etdirir.

"Sələflər və xələflər" parkında Nizami Gəncəvi başda olmaqla Gəncə mühitinin yetişdirdiyi şair, yazıçı və öz dövründə hünər sahibi olmuş, əlinin əməyi, biləyinin gücü ilə fərqlənmiş şəxslərin heykəlləri ucaldılıb. Burada ümumilikdə 17 abidə var ki, onların arasında Məhsəti Gəncəvi, Mirzə Şəfi Vazeh, Əbül-Üla Gəncəvi, Qivami Gəncəvi, Usta Bəndər, Şeyx Zaman, Doktəri Xətibi Gəncəvi, Əfrasiyab və Ömər Gənci kimi tarixi şəxsiyyətlərin adları diqqət çəkir. Abidələrin müəllifi heykəltəraş Asəf Həsənovdur.

Gəncə şəhərində Nizami Gəncəviinin adını özündə yaşadan mədəniyyət nümunələrindən biri də el arasında "Nizaminin evi" kimi kimi tanınan "Nizami Gəncəvinin Ev Muzeyi" dir. Ev muzeyi 1980-ci ildə "Nizami" bədii filminin çəkilişi zamanı tikilmişdir. Muzeyin tikilməsində məqsəd Azərbaycanın XII əsrə aid milli və məişət ənənələrinin müasir dövrdə təcəssüm etdirilməsindən və canlandırılmasından ibarət olmuşdur.

"Qüvvət elmdədir başqa cür heçkəs, Heç kəsə üstünlük eyləyə bilməz"-deyən dahi Azərbaycan filosofu Nizami Gəncəvini Şərqin bir çox mütəfəkirləri təkcə şair kimi deyil,

eyni zamanda həm öz dövrünün, həm də bu dövrün dünyəvi elmlərini kamil bilən bir alim kimi təqdim etmişlər.Məhz bu nöqteyi-nəzərdən yanaşsaq, Gəncə şəhərində fəaliyyət göstərən Nizami Gəncəvi adına 11 saylı orta məktəb də dahi mütəfəkkirin adını daşıyan bir elm ocağı kimi dövlətimizin, xalqımızın həyatında mühüm rol oynayan vətəndaşlar yetirməkdədir.

El arasında belə bir deyim var: “Hər bir xalqın mədəniyyəti yoldan başlayır”.İnsan oğlu dünyaya gəldiyi ilk gündən ömrünün sonuna qədər yol gəlir. Hər kəsin gəldiyi, seçdiyi yol onun taleyini, ömür sərmayəsini müəyyənləşdirir.

Gəncə şəhərində Ulu Nizaminin adını daşıyan tarixi, mədəni və ədəbi məkanlarla yanaşı insanların hər gün istifadə etdiyi böyük bir yol- Nizami Gəncəvi prospekti də fəaliyyət göstərir.

Şəhərin ən böyük prospektlərindən biri olan bu yol dahi mütəfəkkirin adını daşımaqla öz tarixi missiyasını yerinə yetrir.

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin Gəncə şəhərində adını daşıyan bu təşkilatlar, mədəniyyət ocaqları, təhsil müəssisələri Gəncə şəhər İcra Hakimiyyətinin dəstəyi ilə müxtəlif vaxtlarda bir-birindən maraqlı konfranslar, simpoziumlar təşkil etməklə dahi mütəfəkkirin irsinin tanıdılması istiqamətində mühüm fəaliyyətlər həyata keçirirlər.

## ƏDƏBİYYAT


1. Allahverdiyeva Z . “Nizami Gəncəvinin nəsil şəcərəsi hqqında”, “Nizamişünaslıq” jurnalı, Gəncə, 2022.
2. Araslı H. “Nizami vəqfi haqqında yeni sənəd”, “Ədəbiyyat və incəsənət” qəzeti, 25 fevral, 1982.
3. Araslı N . “Nizami və Gəncə”, “Nizamişünaslıq” jurnalı, Gəncə, 2022.
4. Nizami Gəncəvi “Sirlər Xəzinəsi” poeması, “Elm və təhsil”, Gəncə 2011.
5. Nizami Gəncəvi “İsgəndərnamə” poeması, “Elm və təhsil”, Gəncə 2011.
6. Nizami Gəncəvi “Xosrov və Şirin” poeması, “Lider” nəşriyyatı, Bakı, 2004.
7. Nizami Gəncəvi Biblioqrafiya, M.F.Axundov adına Milli Kitabxana, Bakı 2012.
8. Həbibbəyli İ. “Böyük Azərbaycan şairi Nizami Gəncəvi”, “Elm” nəşriyyatı, Bakı 2021.
9. Həsənov E. “Gəncə İmamzadə türbəsi”, “Elm və təhsil”, Bakı 2012.
10. Kərimli T. “Nizami və tarix””Elm” nəşriyyatı, Bakı 2002.
11. Məhəmməd Övfi “Lübabül-əlbab” təzkirəsi, Tehran, 1335.
12. Muradov Z. “Nizami Gəncəvi məqamı”, “525-ci qəzet”, 19 yanvar 2021.
13. Muxtarov Ə. “Nizami Gəncəvi obrazı bədii ədəbiyyatda”, “Elm” nəşriyyatı, Gəncə 2021.
14. Pişnamazzadə S. “Nizami Gəncəvi məqbərəsinin tarixi və taleyi”, “Elm” nəşriyyatı, Gəncə 2011.
15. Yusifli X. “Nizaminin lirikası” “Elm və təhsil”, Bakı 2022.
16. Yusifli X, Pişnamazzadə S, Həsənov E, “Nizami Gəncəvinin şəcərə tarixi”, “Elm” nəşriyyatı, Gəncə 2021.
17. https://nizamiganjavifoundation.org/
18. . https://www.moderator.az/news/212768.html

***Алимухтар МУХТАРОВ***
***Кандидат филологических наук, доцент***

**НИЗАМИ И ГЯНДЖА**

***РЕЗЮМЕ***

*Ключевые слова:* Азербайджанский поэт Низами Гянджеви, Гянджа, национальная принадлежность, «Хамса», поэма

Хотя более 800 лет отделяют нас от эпохи, в которую жил и творил великий азербайджанский поэт и мыслитель Низами Гянджеви, идеи, выраженные им относительно своей национальной принадлежности, остаются столь же яркими, как солнце, и столь же прозрачными, как небеса. Независимо от того, кто и в какое время пытался вмешаться или переосмыслить вопросы, поднятые им в его бессмертной «Хамсе», ни одна строка — рожденная его бессонными ночами - не позволила и никогда не позволит исказить его национальность, его землю и его мировоззрение.

«Гянджа, являясь одной из постоянных тем творчества Низами, прежде всего увековечена в памяти поколений как родина поэта. В исторических источниках и художественных произведениях Гянджа упоминается рядом с именем поэта, логически и неразрывно дополняя его. Выдающиеся исследователи наследия Низами - особенно его поэтические последователи - называют Гянджу родиной поэта, землёй Низами, зачастую вспоминая его даже без упоминания имени, называя лишь “Мастером из Гянджи”, “Сокровищником Гянджи”, “Гением из Гянджи”.»

В статье обосновывается принадлежность Низами Гянджеви к азербайджанской литературной традиции на основе его собственных произведений, свидетельств его последователей, а также существования многочисленных научных, образовательных и культурных учреждений в его родном городе Гянджа, которые сегодня носят его имя.

***Alimuxtar MUXTAROV***
***PhD in Philology, Associate Professor***

**NIZAMI AND GANJA**

***SUMMARY***

*Key words:* Azerbaijani poet Nizami Ganjavi, Ganja, national identity, Khamsa, poem

Although more than 800 years separate us from the era in which the great Azerbaijani poet and thinker Nizami Ganjavi lived and created his works, the ideas he expressed regarding his national identity remain as bright as the sun and as clear as the sky. Regardless of who, at various periods, attempted to interfere with or reinterpret the matters he addressed in his immortal *Khamsa*, none of the verses-born of his sleepless nights-have allowed or will ever allow the distortion of his nationality, his homeland, or his worldview.

For “Ganja, one of the constant themes of Nizami’s creativity, has above all been eternally preserved in the memory of generations as Nizami’s homeland. In historical sources and literary works, Ganja is mentioned alongside the poet’s name, complementing it in a logical and inseparable manner. Eminent scholars of Nizami’s legacy-especially his poetic successors-refer to Ganja as the poet’s homeland, the land of Nizami, often remembering him without even mentioning his name, simply calling him ‘the Master of Ganja,’ ‘the Treasurer of Ganja,’ or ‘the Genius from Ganja.’”

This article substantiates Nizami Ganjavi’s identity as an Azerbaijani poet by drawing upon his works, the testimonies of his followers, and the existence of numerous scientific, educational, and cultural institutions in his native city of Ganja that bear his name today.

***Daxil oldu: 24.10.2025-ci il***